Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının səfirliyi
Cakarta

Press-reliz

7 fevral 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixail Saakaşvili və Türkiyə Respublikasının Baş naziri Rəcəb Teyyib Ərdoğan Tbilisidə Avropanın, Mərkəzi Asiyanın və bütövlükdə Asiyanın dəmiryolu sistemini birləşdirəcək Bakı-Tbilisi-Qars (BTK) dəmiryolunun inşası haqqında Çərçivə Müqaviləsini imzalamışlar.

Çindən gələn yük Aktau (Qazaxıstan) limanına çatdırılacaq, sonra dəmiryolu bərələri ilə Bakıya nəql ediləcək, daha sonra birbaşa İstanbula və Avropaya göndəriləcək. İstanbul-Qars-Tbilisi-Bakı-Türkmənbaşı-Daşkənd-Almatı-Çin marşrutu Trans-Asiya dəmir yolundan 415 kilometr qısadır.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərindən sonra bu üçüncü beynəlxalq regional layihədir. Qeyd olunan layihələr artıq fəaliyyət göstərirlər.

Yeni dəmir yoluna 105 kilometrlik ( 76 km Türkiyə, 29 km Gürcüstanda) xəttin inşası əlavə olunacaqdır. Bu xətt Azərbaycan, Gürcüstan və Türkiyə dəmiryolu şəbəkəsini bir-birinə birləşdirəcəkdir. İnşa işləri 2007-ci ildə başlayacaq, 2009-cu ildə başa çatacaqdır. Layihənin ümumi dəyəri $600 milyondur, onun $ 422 milyonu inşa və bərpa etmə işlərinə sərf ediləcəkdir.

İmzalanma mərasimində Prezident İlham Əliyev Azərbaycan, Gürcüstan və Türkiyənin iştirak etdiyi layihənin vacibliyini vurğulayaraq onun regional və beynəlxalq əməkdaşlığa, region xalqlarının tərəqqisinə, həmçinin bu strateji məkanda sabitliyi, sülhü və təhlükəsizliyi təmin etməyə yönəldiyini bildirmişdir.

Gürcüstan Prezidenti Mixail Saakaşvili yeni dəmiryolu xəttinin gələcəyə, uğurların bünövrəsini yaratmağa yönəldildiyini, onun regionun uzunmüddətli inkişafının ciddi təminatçısı olacağını bildirmişdir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan dəmiryoluna relslər üzərində tarixi İpək Yolu kimi istinad etmişdir. O bu işin sadə regional əməkdaşlıq olmadığı, dəmiryolunun hər bir dayanacağının, sülh, dostluq və həmrəylik dayanacağı olduğu barədə mesajın bütün dünyaya ünvanlandığını dilə gətirmişdir.

9 fevral 2007-ci il